# MÜBARİZ KEŞİKDƏ

24 may 2018-ci il
Cümə axşamı

№ 20 (3384)

1933-cü ildən çıxır

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak edib. Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsib.

Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev ali təhsil ocağının kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Azərbaycan Prezidenti İlham Əliyev mayın 16-da şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına kompleks barədə məlumat verib.

Prezident İlham Əliyev kompleksi işə salıb.

Sonda xatirə şəkli çəkdirilib.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mayın 16-da Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində və Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsindəki Təlim-Tədris Mərkəzində yaradılan şəraitlə tanış olub.

Sonra Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışını edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri mayın 16-da başa çatıb.

Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və hökumətin üzvləri yola salıblar.



## SERBİYA PREZİDENTİ ALEKSANDR VUÇİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 21-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Serbiya Prezidenti Aleksandr Vuçiçin mayın 21-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Serbiya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Prezidenti Aleksandr Vuçiçi qarşılayıb.

Qarşılanma mərasimindən sonra prezidentlərin təkbətək görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Prezidentlər görüşdə çıxış ediblər.

Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Daha sonra dövlət rəhbərləri mətbuata bəyanatlarla çıxış ediblər.

Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin şərəfinə rəsmi ziyafət verilib.

Serbiya Prezidenti Aleksandr Vuçiç mayın 22-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.

Ali qonaq görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini yad edib, məzarı üzərinə tər güllər düzüb.

Serbiya Prezidenti mayın 22-də Şəhidlər xiyabanını ziyarət edib.

Mayın 22-də Azərbaycan Dillər Universitetində Serb Dili və Mədəniyyəti Mərkəzinin açılışı, Serbiya Prezidenti Aleksandr Vuçiçə bu ali məktəbin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimləri keçirilib.

Serbiya Prezidenti Aleksandr Vuçiçin iştirakı ilə İqtisadiyyat Nazirliyində Azərbaycan-Serbiya işgüzar görüşü keçirilib.

Həmin gün Serbiya Prezidenti Bakıda serb xalqının böyük oğlu, görkəmli alim Nikola Teslanın abidəsini ziyarət edib.

Serbiya Prezidenti mayın 22-də Azərbaycan Respublikası Milli Məclisində olub.

Serbiya dövlətinin rəhbəri Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri mayın 22-də başa çatıb.

## PREZİDENT İLHAM ƏLİYEV YENİ AZƏRBAYCAN PARTİYASININ YENİ İNZİBATI BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB

Mayın 18-də Bakıda Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Dövlətimizin başçısı yeni inzibati binanın rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin binanın foyesindəki abidəsinin önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyev binada yaradılan şəraitlə yaxından tanış olub.

Qeyd edək ki, Azərbaycanın aparıcı siyasi qüvvəsi olan, milli maraqların müdafiəsi və təmin edilməsi istiqamətində uğurla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının yaranmasından artıq 26 il ötür. Partiya bu gün ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, respublikamızın tərəqqisinə mühüm töhfələr verir. Partiya Azərbaycanın müasir və dinamik inkişaf edən ölkə kimi nüfuzunun daim artmasında mühüm rol oynayır, ümummilli lider Heydər Əliyevin ideya və arzularını yüksək səviyyədə həyata keçirir. Son illərdə keçirilən prezident və parlament seçkilərində böyük səs çoxluğu ilə qalib gələn Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi kimi Azərbaycan cəmiyyətində yüksək etimad, hörmət və nüfuz qazanıb. Hazırda Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox üzvü birləşdirir. Onların 38 faizini gənclər, 47 faizini isə qadınlar təşkil edir. Partiyanın Gənclər Birliyi və Qadınlar Şurası da təşkilatın aparıcı qüvvəsi kimi ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Mayın 18-də Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı dövlət başçıları Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında əməkdaşlığa dair aktual məsələləri müzakirə edib, bundan əvvəl əldə olunmuş razılaşmaların praktiki şəkildə həyata keçirilməsi və ikitərəfli qarşılıqlı fəaliyyətin inkişafının perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 16-da Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi "World Food Azerbaijan 2018" və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro 2018" sərgiləri ilə tanış olub.**

***Mayın 22-də Bakının Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışı olub.***

***Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib.***

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı mayın 16-da Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri mayın 16-da Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi və Muxtar Respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Mayın 17-də ölkəmizin rəhbəri Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı mayın 17-də Kamerun Respublikasının milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Pol Biyaya təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Mayın 18-də dövlətimizin başçısı Bərdə şəhərində Tərtər çayı üzərində yeni körpü tikilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Mayın 18-də ölkəmizin rəhbəri baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə başsağlığı teleqramı göndərib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 21-də Beynəlxalq Əmək Təşkilatının baş direktoru Qay Rayderin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Mayın 22-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də akademik Cəlal Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.***

## *Daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyətinə*

*Hörmətli həmkarlar!*

*Yüz illik yubileyini fəxrlə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaranışı milli dövlətçilik tariximizin ən şanlı və parlaq səhifələrindən biridir. Müsəlman Şərqində ilk parlamentli respublika quran xalqımız hələ bir əsr əvvəl dünyaya öz istedadını və demokratik təfəkkürünü, suveren dövlətdə yaşamağa layiq və buna qadir olduğunu nümayiş etdirmişdir.*

*90-cı illərin əvvəllərində yenə bir çox çətinliklərlə qarşılaşan Azərbaycanın müstəqilliyi məhz ulu öndər Heydər Əliyevin qətiyyəti və müdrikliyi sayəsində qorunub saxlandı, əbədi və dönməz xarakter aldı. Həmin dövrdə milli dövlətçiliyimizin cinayətkar qəsdlərdən qorunmasında Azərbaycan Xalq Cümhuriyyətinin yadigarlarından olan daxili işlər orqanları da yaxından iştirak edərək ölkədə sabitliyin yaranmasına və qanunçuluğun bərpasına layiqli töhfələr vermişdir.*

*Özünü Xalq Cümhuriyyətinin varisi elan edən bugünkü müasir Azərbaycan möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi praqmatik, uzaqgörən siyasət nəticəsində demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyir. Ölkəmizin iqtisadi və hərbi qüdrəti getdikcə artır, dinamik inkişafın, vətəndaşların rifahının əsas şərti olan, təməlində xalq-iqtidar birliyi dayanan sabitlik etibarlı təmin olunur və günbəgün möhkəmlənir.*

*Əminəm ki, hər biriniz bundan sonra da cinayətkarlıqla mübarizədə, ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında səylərinizi əsirgəməyəcək, qanunla müəyyən edilmiş vəzifələri, qarşıya qoyulmuş tapşırıqları ləyaqətlə yerinə yetirəcəksiniz.*

*Tarixi hadisə - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə bütün şəxsi heyəti, veteranlarımızı, respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının və hərbi qulluqçuların ailə üzvlərini səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, səadət, şəxsi həyatda və xidmətdə yeni-yeni uğurlar arzulayıram!*

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının daxili işlər naziri,**
**general-polkovnik**

*Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.*

**Heydər Əliyev**
**Azərbaycan xalqının ümummilli lideri**

# HAQQIMIZI QORUMAQ ÜÇÜN HÜQUQUMUZU BİLMƏLİYİK

Dünyanın elə bir ölkəsi yoxdur ki, orada insan hüquqları qəbul edilməsin. Ölkələrin konstitusiyalarında da əsas hüquqların və beynəlxalq razılaşmaların köməyi ilə insan haqları inkarolunmaz bir hüquq kimi qəbul edilib.

Beynəlxalq aləmdə insan haqları BMT-nin deklarasiyası ilə qanunlaşdırılıb. İnsan haqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur: "Hər bir insan onun malik olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq, təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir".

İnsan hüquqları bütün insanların malik olduğu hüquqlardır. Bu hüquqlar insan anadan olan andan yaranır. Yaşamaq, azadlıq, təhlükəsizlik, mülkiyyət, şəxsiyyətin ləyaqəti, şəxsi və ailə sirrini saxlamaq hüquqları insan hüquqları prinsipləri sırasında öndə gəlir.

İlk dəfə olaraq insan haqqına Fransada 1789-cu ildə qəbul edilmiş "İnsan və vətəndaş haqları bəyannaməsi"ndə rast gəlinir. Baxmayaraq ki, buna qədər insan haqlarının tanınması uzun inkişaf yolu keçmişdir. Onun inkişaf yolunda İngiltərə və Amerikada bu sahədə məlum olan xartiyalar var idi.

XX əsrdə insan hüquqları sahəsində əsas sənəd 10 dekabr 1948-ci ildə BMT tərəfindən qəbul olunmuş "İnsan hüquqları haqqında ümumi bəyannamə" olmuşdur.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi nailiyyətlərdən biri Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış «İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında» memorandumdur.

2001-ci il dekabrın 28-də qəbul olunmuş «Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil «Ombudsman) haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu da respublikamızda insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət edir. 2001-ci il iyulun 2-də Azərbaycan Respublikasının ilk Ombudsmanı seçilmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması istiqamətində həyata keçirilən çoxşaxəli humanizm siyasəti Prezident İlham Əliyevin timsalında müasir dövrün qanunauyğunluqlarına, reallıqlarına və tələblərinə müvafiq surətdə davam etdirilir. Məhz bu cür ali və humanist mövqeyin qanunauyğun nəticəsi kimi, 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

İnsan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində aparılan siyasət ardıcıl, dönmədən, uğurla davam etdirilir. Bu sahədə əldə olunan nəaliyyətlər dövlətimizin beynəlxalq nüfuzunun daha da artmasına səbəb olmuşdur.

Demokratik, hüquqi dövlətin qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi ölkə Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçımızın 27 dekabr 2011-ci ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" bu istiqamətdə tarixi hadisə sayıla bilər. Milli Fəaliyyət Proqramının təsdiq edilməsi insan hüquqları sahəsində tədbirlərin davamlılığının təmin olunması məqsədini daşıyır, eyni zamanda, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hədəflərinə yönəlmişdir.

# YAŞAT, YAŞA AZƏRBAYCAN!

**May günlərinin biri- ölkəmizin hər yerində təntənəli şəkildə qeyd olunan, öyrənilən, yenidən yaşanan və ölməzlik qazanan Respublika günü Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gündür.**

Yüz il əvvəlki müstəqil Azərbaycanın taleyinə uzunömürlülük yazılmayıbmış. İlk cümhuriyyətimizin doğuluşu tarixin təlatümlü vaxtına düşdü. Müxtəlif maraqlarla ölkəyə yürüş edən xarici hərbi qüvvələrin çoxsaylı təzyiqləri nəticəsində gənc dövlətin parlamenti 1920-ci il aprelin 27-də hökuməti təhvil verdi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 701 günlük şərəfli ömrünə son qoyuldu.




Ruhu azad olan bir milləti heç kəs qul edə bilməz. Yetmiş il keçəndən sonra Azərbaycan xalqı yenidən ayağa qalxdı, öz haqqını-azadlığını, müstəqilliyini və bütövlüyünü tələb etdi. Bu yolda məhrumiyyətlərə düçar edildi, şəhidlər verdi, lakin yolundan dönmədi. 1991-ci ilin oktyabrında Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdi.

1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda xalqın çağırışı, təkidi ilə ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdı və Azərbaycan müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu.

Xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra öz ulu öndərinin rəhbərliyi altında Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövlətini yaratdı. Lakin Azərbaycan Respublikası Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı və dönməz ictimai-siyasi sabitlik bərpa edildi.

Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu gedir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür.

Cümhuriyyətin tarixi təcrübəsi bizə onu da öyrətdi ki, dövlət müstəqilliyini və suverenliyini qazanmaq kifayət deyil, onu qorumağı, yaşatmağı, dönməz etməyi bacarmalısan.

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

# MÜSƏLMAN ŞƏRQİNDƏ İLK RESPUBLİKA
# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

**Anar İsgəndərov,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor**

**1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanın müstəqilliyi haqqında «İstiqlal bəyannaməsi» qəbul etdi. Milli Şuranın 24 səslə (iki nəfər – Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov bitərəf qaldı) qəbul etdiyi qərar və altı bənddən ibarət «İstiqlal bəyannaməsi», yaxud «Misaği-milli» (əqdnamə) Azərbaycan millətinin varlığını bütün dünyaya bəyan etdi. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı – «İstiqlal bəyannaməsi»nin qəbulu ilə Azərbaycan dövlətçiliyi Xalq Cümhuriyyəti formasında elan olundu.**

Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır. «İstiqlal bəyannaməsi»ndə demokratik dövlətə məxsus atributların – hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmsil edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq, azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu nümayiş etdirdi. «İstiqlal bəyannaməsi» Azərbaycan millətinin millət-mədəniyyət statusundan tamamilə başqa siyasi-hüquqi və mənəvi-psixoloji statusa – millət-dövlət statusuna qədəm qoyduğunu göstərdi.

Mayın 30-da Azərbaycan öz müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi.

«İstiqlal bəyannaməsi»ni qəbul edən Milli Şura Azərbaycan hökumətini təşkil etməyi bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. İlk hökumətə «Müsavat», Müsəlman sosialist bloku, «Hümmət», «İttihad» və bitərəflərdən ibarət 9 nazir təmsil edildi.

Cənubi Qafqazın özünü müstəqil elan etmiş üç dövləti – Azərbaycan, Gürcüstan və Ermənistanın nümayəndələri Batumda Osmanlı dövləti ilə danışıqlar apararaq iyunun 4-də ayrı-ayrılıqda müqavilə imzaladılar. Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski imzaladılar. Müqavilənin şərtləri Ermənistan və Gürcüstan üçün çox ağır idi, Azərbaycanla Osmanlı dövləti arasında isə «daimi sülh və dostluq münasibətləri»ni bərqərar edirdi. Yeni yaranmış Azərbaycan hökumətinin xahişinə cavab olaraq, Osmanlı hökumətinin hərbi naziri Ənvər paşa ilk yardım kimi Azərbaycana 2 milyon türk lirəsi həcmində kreditin ayırmışdı, Azərbaycanda olan türk ordusunun ehtiyaclarına hər ay 50 min lirə xərclənirdi. Bununla yanaşı, Ənvər paşa İstanbulda M.Ə.Rəsulzadə ilə görüşündə Azərbaycan milli ordusunun təşkil edilməsinin vacibliyini xüsusi qeyd etmişdir.

1918-ci il iyulun 16-da Azərbaycan Milli Şurasının və hökumətin Gəncəyə köçməsi ilə əlaqədar milli qüvvələr arasında mübarizə kəskinləşdi. Milli Şuradan kənarda qalan burjua-mülkədar dairələrinin məhdud dünyagörüşlü mürtəce hissəsi Türkiyənin Azərbaycanda olan ordusunun başçısı Nuru paşanın vasitəsilə Milli Şuranı hakimiyyətdən uzaqlaşdırmağa cəhd etdilər. Azərbaycanın Türkiyəyə ilhaq edilməsinin tərəfdarı olan bu dairələr Milli Şuraya qarşı fəal kampaniya aparırdı. Gəncədə yerləşən Qafqaz-İslam ordusu komandanlığı ilə milli qüvvələr arasında münasibətlər gərgin bir şəkil aldı. Nuru paşanın müstəqilliyi elan etmiş dövlətin daxili işlərinə qarışaraq F.X.Xoyskinin başçılıq etdiyi hökumətə etimadsızlıq göstərməsi siyasi böhranla nəticələndi. Mövcud siyasi böhranı aradan qaldırmaq üçün Azərbaycandakı türk qoşunları rəhbərliyi ilə Azərbaycan Milli Şurası arasında güzəştli bir qərar qəbul olundu: Milli Şura buraxılır, ali qanunverici və icraedici hakimiyyət Fətəli Xan Xoyski kabinetinin əlində cəmləşir. İyun böhranı nəticəsində fəaliyyətini müvəqqəti olaraq dayandıran Milli Şura öz tarixi missiyasını – Azərbaycanın dövlət müstəqilliyini çox çətin və mürəkkəb bir mərhələdə qoruyub saxlamaq vəzifəsini yerinə yetirdi. İyunun 17-də axşam Gəncədə F.X.Xoyskinin rəhbərlik etdiyi ikinci hökumət təşkil edildi. İyunun 19-da Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq, hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. İyunun 26-da Azərbaycan milli ordusunun yaradılması haqqında fərman verdi. Almanların Bakı neftinə xüsusi maraqları olduğundan Bakının tutulmasına mane olmaq məqsədilə Osmanlıların beşinci diviziyasının Gürcüstan dəmiryolu ilə Gəncəyə gəlməsini qadağan etdilər. Ona görə də Qafqaz diviziyası Mürsəl paşanın rəhbərliyi ilə Gümrü-Dilican-Ağstafa yolunu döyüşlə keçməyə məcbur oldu. Azərbaycan əhalisi Osmanlı qoşunlarını böyük sevinclə qarşılayır və onların gəlişini bayram edirdilər.

Osmanlıların beşinci piyada diviziyası və general Ə.Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında Qafqaz-İslam ordusu təşkil edildi. Nuru paşanın rəhbərlik etdiyi bu orduya türklərdən və azərbaycanlılardan ibarət 18 min əsgər və zabit daxil idi.

Qafqaz-İslam ordusu vasitəsilə Azərbaycan hökuməti öz hakimiyyətini tezliklə yerlərdə yaya bildi, ucqarlarda dövlət orqanları yaratmağa başladı. Bakı Xalq Komissarları Sovetinin liderləri Azərbaycan Xalq Cümhuriyyətini beləkdə ikən boğmaq üçün yollar arayırdılar. Hələ Gəncə üzərinə yürüşə başlamazdan əvvəl Leninin tapşırığı ilə Şaumyan türk qoşunlarının Azərbaycana yolunu bağlamaq üçün Gürcüstan hökumətinin başçısı Jordaniyaya müraciət etdi. Şaumyan Jordaniyaya vəd edirdi ki, əgər Gürcüstan türk qoşunlarını öz ərazisindən Azərbaycana buraxmasa, Sovet Rusiyası onun müstəqilliyini tanıyacaqdır.

Azərbaycanın şərqində kommunist diktaturası yaradan Şaumyan Bakı Sovetinin ixtiyarında olan 18 min döyüşçü ilə Cənubi Qafqazdakı milli hərəkatı boğmaq üçün qəti hücuma başladı. Tamamilə erməni daşnak qüvvələrindən təşkil olunmuş ordu müsəlman əhalisinə qarşı hər cür amansızlığa yol verirdi.

İyunun 10-da Bakı Sovetinin Gəncə istiqamətində yürüşləri başlandı. İyunun 12-də Kürdəmiri işğal edən Bakı Soveti qüvvələri Göyçaya yaxınlaşdılar. İki həftədən çox davam edən qanlı döyüşlər Türkiyədən göndərilən əlavə qüvvələrin və Azərbaycan könüllüləri hesabına Qafqaz-İslam ordusunun qələbəsi ilə nəticələndi. Qafqaz-İslam ordusunun Göyçay ətrafındakı qələbəsi Azərbaycanın şərq hissəsini, o cümlədən Bakını bolşevik-daşnak işğalından azad etmək uğrunda apardığı şərəfli mübarizədə dönüş nöqtəsi oldu. Bu döyüşlərdə Bakı Soveti qoşunlarına elə ağır zərbələr vuruldu ki, onlar bir daha özlərinə gələ bilmədilər. Qafqaz-İslam ordusu bolşevik-daşnak birləşmələrini darmadağın edərək Bakı istiqamətində azadlıq yürüşünə başladı. İyulun 20-də bu istiqamətdə mühüm strateji məntəqə olan Şamaxı şəhəri azad edildi. İyulun sonunda S.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti istefa verməyə məcbur oldu. 1918-ci il avqustun 1-də Bakıda eser, menşevik və daşnaklardan ibarət «Sentrokaspi» diktaturası adlanan mürtəce bir qurum yaradıldı. İngilislərin Bakıya çağırılması da «Sentrokaspi» diktaturasını xilas edə bilmədi. Qafqaz-İslam ordusu sentyabrın 15-də Bakı üzərinə həlledici hücuma başladı. Şəhər böyük müqavimət hesabına alındı və Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü. 1918-ci il mayın 28-dən sonrakı dövrdə Azərbaycanın həyatında ikinci mühüm hadisə baş verdi: Bakı azad edildi və Azərbaycan hökuməti tam heyətdə əsl paytaxtda qərarlaşdı.

Azərbaycan torpaqlarının azad olunmasında Qafqaz-İslam ordusu 4 min əsgər və zabit şəhid verdi.

Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox dünyanı lərzəyə gətirən Birinci Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. İki hərbi qruplaşma arasında gedən imperialist müharibəsində Azərbaycan öz mənafeyi baxımından Osmanlı dövlətinin qalib gəlməsini arzulayırdı. Lakin hadisələr başqa cür cərəyan edirdi. Türkiyə ilə Antanta dövlətləri arasında 1918-ci il 30 oktyabr tarixli Mudros müqaviləsinə görə məğlub sayılan Osmanlı qüvvələri Bakını tərk etməli, Antanta qüvvələri tərəfindən Bakının tutulmasına mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. İranın Ənzəli limanında yerləşən ingilis hərbi hissələri müttəfiqlər adından Bakını tutmalı idi. Ənzəliyə danışıqlar aparmaq üçün gələn Azərbaycan nümayəndə heyəti ingilis hərbi hissələrinin komandanı general Tomsona Azərbaycan ərazisinə daxil olmazdan əvvəl AXC-ni tanımaq haqqında bəyanat verilməsini təklif etdi. Lakin general Tomson bu təklifi rədd etdi və bildirdi ki, «Azərbaycan Respublikası türklərin intriqası nəticəsində yaranmışdır və xalq arasında heç bir dayağa malik deyildir. Bir halda ki, siz bunun əksini iddia edirsiniz, o halda hər şeyi yerində yoxlayıb, buna münasib də qərar verərik. Müttəfiqlər dağıtmaq üçün yox, qurmaq üçün gəliblər». V.Tomson bəyanat verərək elan etdi ki, noyabrın 17-si səhər saat 10-a qədər Bakı şəhəri Azərbaycan və türk ordularından təmizlənməlidir: Bakı və onun neft mədənləri ingilislərin nəzarəti altına keçəcəkdir, ölkənin qalan hissəsi isə Azərbaycan hökumətinin və ordusunun nəzarəti altında olacaqdır. Azərbaycan rəsmi şəkildə tanınmır, lakin İngiltərə, Fransa və ABŞ nümayəndələri onun hökuməti ilə de-fakto əlaqə yaradacaqlar, bütün idarə və təşkilatlar bəzi dəyişikliklərlə fəaliyyət göstərəcəklər. General Tomson Bakının general-qubernatoru olacaq, ingilislər şəhər polisinə rəhbərlik edəcək, şəhər duması yenidən azad fəaliyyətə başlayacaq, Azərbaycan Paris sülh konfransında milli müqəddəratını təyinetmə prinsipi əsasında iştirak edəcək, L.Biçeraxov və onun dəstələri Britaniya ordusu ilə birlikdə Bakıya daxil olacaq və nəhayət, silahlı erməni dəstələri şəhərə buraxılmayacaqlar.

Azərbaycan nümayəndə heyətinin Ənzəli danışıqları əhəmiyyətsiz olmadı. Ən əsası ona görə ki, Azərbaycanın Paris sülh konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə general Tomson öz üzərinə təəhhüdlər götürdü.

Noyabrın 17-də Tomsonun hərbi dəstələrinin Bakıya gəlişini şəhər əhalisi eyni cür qarşılamadı. Rus və erməni milli şuralarının tərəfdarları sevinc içərisində idilər. Biçeraxov təyyarələrdən «Rusiya vətəndaşlarına» adlı intibahnamələr səpir, xristian əhalisini Bakının «Ana vətənə qovuşması» münasibəti ilə təbrik edirdi. General Tomsonun da iki gün sonra yaydığı bəyannamə eyni ruhda idi. General Biçeraxov daha irəli gedərək qurama «Qafqaz-Xəzər» hökuməti yaratdı, Bakıda çevriliş təşkil etmək üçün geniş fəaliyyətə başladı. Bakıdakı erməni və rus milli şuraları A.Biçeraxovun gəlişi ilə bağlı belə bir şayiə yayırdılar ki, guya Azərbaycan deyilən dövlət yoxdur, yalnız Rusiya vardır. Azərbaycan hakimiyyəti devrilməli və o, Biçeraxovun başçılıq etdiyi Xəzəryanı hökumətlə əvəz edilməlidir. Milli Şura hazırkı fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar özünü parlamentə çevirməyi qərara aldı. Qanunların hazırlanması üzərində işləyən müvafiq komissiyanın Azərbaycan parlamentinin yaradılması haqqında qanun layihəsi Milli Şura tərəfindən 1918-ci il noyabrın 20-də qəbul edildi.

**Ardı var.**

# POLİS ZƏKALILARIN QONAĞI OLDU

**Xətai Rayon Polis İdarəsinin əməkdaşları 287 nömrəli "Zəkalar" liseyində şagirdlərlə görüşə gəlmişdilər.**



Liseyin inzibati binası kiçik olsa da burada yaradılan şərait, nizam-intizam diqqətimizdən yayınmadı. Məktəbin direktoru Aygün Əhmədli dövlətimizin təhsilə xüsusi önəm verdiyini, xüsusi istedada malik şagirdlərə, tələbələrə təqaüdlər ayrıldığını diqqətimizə çatdıraraq gələcəyimizi etibar edəcəyimiz gənclərin yetişməsi üçün hər cür şəraitin yaradıldığından razılığını bildirdi.

A.Əhmədli ötən il məktəbin məzunlarından əksəriyyətinin yüksək bal toplayaraq ölkənin ən aparıcı təhsil müəssisələrinə qəbul olunmasını da sevinc hissilə dedi.

İdarə rəisi, polis polkovniki Muradəli Babayev adəti üzrə bu dəfə də aşağı sinif şagirdləri ilə görüşmək arzusunda olduğunu bildirdi.

Maraq dolu baxışlarla bizi izləyən birincilərlə ünsiyyət qurmaq elə də çətin olmadı və polis haqqında uşaqlarda obyektiv fikir formalaşdıran müəllimlərin zəhməti də diqqətdən yayınmadı.

Yuxarı sinif şagirdləri və müəllimlər zalda yerlərini tutmuşdular.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru bildirdi ki, dünyanı cənginə alan bəlaya və onunla mübarizəyə qarşı ölkəmizdə uğurlu mübarizə aparılır. Yəni gündən-günə kürəselləşən dünyamızda uşaqlara diqqət və qayğının artırılması valideynlərlə yanaşı, bu gün dövlətimizin də nəzarətindədir. Məhz buna görə də aidiyyəti qurumların cəmiyyəti narahat edən problemlərə diqqət çəkib həyəcan təbili çalmaları, əlbəttə ki, başadüşüləndir.



Polis polkovniki M.Babayev qeyd etdi ki, narkomaniya adlı bəladan qurtulmaq, onunla mübarizə aparmaq üçün hər birimiz əl-ələ verməli, səylərimizi birləşdirməliyik. Məktəb, valideyn və polis həmrəyliyi övladlarımızı bu bəlanın girdabına düşməkdən qoruyar.

Bu il qəbul imtahanlarında 8 nəfərin 600-dən yuxarı bal toplamasını və bir sinifdən 6 nəfərin DİN-in Polis Akademiyasına sənəd verməsinin birbaşa polisin məktəblərdə keçirdiyi maarifləndirmə tədbirləri ilə əlaqəli olduğunu xüsusi vurğulayan məktəb direktoru gəncliyimizə və gələcəyimizə verdiyi dəyərə görə DİN rəhbəriyinə də minnətdarlıq etdi.

Qeyd olundu ki, təhsildə uğur əldə edən və gələcəkdə polis arzusunda olmaq istəyənləri Polis Akademiyası ilə tanışlıq da gözləyir.

Tədbirdə Respublika Narkoloji Mərkəzin həkimi Yaşar Bədəlli və RPİ Veteranlar Şurasının üzvləri də iştirak edirdilər.

*H.Təmirov, polis mayoru*

# YUBİLEY ƏRƏFƏSİNDƏ...

**Ölkədə gedən hərtərəfli inkişaf, iqtisadiyyatın neftdən asılılığının tədricən aradan qaldırılması, onun qüdrətinin gün-gündən artması Azərbaycanı regionda lider dövlətə çevirmişdir. İndi bölgədə planlaşdırılıb həyata keçirilən iri miqyaslı lahiyələrin hər biri Azərbaycanın maraqlarına xidmət edir. Bütün bunlar ölkə vətəndaşının həyat şəraitinin yaxşılaşdırılmasına, gələcək nəsillərin daha firavan yaşamasına hədəflənmiş addımlardır.**

Azərbaycanın hər yerində müasirliyi və yerli memarlıq üslublarını özündə birləşdirən binalar tikilir, yollar salınır, xarici və yerli turistləri ölkəmizə cəlb etmək məqsədiylə yeni infrastruktur layihələr gerçəkləşdirilir, onların istirahətini maraqlı etmək üçün hər cür şərait yaradılır, və deməli, yeni iş yerləri açılır.



Bütün bu inkişaf daxili işlər orqanlarından da yan keçməmişdir. Bu yaxınlarda 100 illiyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan Polisi daima ölkə rəhbərliyinin ali diqqət və qayğısını hiss etmiş, yeni-yeni xidməti uğurlara imza atmışdır. Əməkdaşların sosial rifahının artırılması, iş şəraitinin yaxşılaşdırılması hər zaman DİN rəhbərliyinin diqqət mərkəzində olmuşdur. İndi ölkənin ən ucqar dağ rayonlarından tutmuş, paytaxtın polis orqanlarının istifadəsində yeni və yaraşıqlı inzibati binalar, ən müasir texniki avadanlıqlar mövcuddur. Bütün bunlar, təbii ki, torpaqlarının işgala məruz qalmış qaçqın rayonlarımızın polis orqanlarına da şamil etmək olar.



Vətənimizin dilbər guşələrindən olan qərb bölgəsində ezamiyyətdə olanda Göygöl rayonunda müvəqqəti məskunlaşmış Kəlbəcər RPŞ-yə də baş çəkib, xidməti fəaliyyətiylə mütəmadi maraqlanmışıq. Qəzetimizin səhifələrində döyüşkən ataların mərd oğullarının idman nailiyyətlərin əks etdirən məqalələr də vermişik.

Amma bu dəfə Kəlbəcər RPŞ-nin inzibati binasında, necə deyərlər, bir ayrı rəng, bir ayrı hava gördüm. Binanın döşəməsindən tutmuş, tavanınacan hər yerdə səliqə-səhman vardı. Ümummilli liderimizin və ölkə başçısının parlaq fəaliyyətlərini əks etdirən fotostend, dövlət atributlarını əks etdirən löhvələr yüksək zövqlə tərtib olunmuşdu.

Öyrəndik ki, əməkdaşların xidmət aparması üçün normal şərait yaradılıb. Vətəndaşların qeydiyyat və şəxsiyyət vəsiqəsi ilə vaxtında təmin edilməsi üçün bütün avadanlıqlar alınıb. Binanın dam örtüyü təmir olunub, həyətə asfalt döşənib, torpaqlarımızın azadlığı uğrunda şəhid olan Kəlbəcər RPŞ əməkdaşlarının əziz xatirəsinə bulaq tikilib.



Bildirdi ki, əməkdaşların bir qismi Gəncə şəhərinin girəcəyində Kəlbəcərdən olan məcburi köçkünlər üçün inşa olunmuş şəhərcikdə xidmət aparır. RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Haxverdi Əkbərovdan xahiş etdim ki, ora da baş çəkək. Sözümü yerə salmayıb razılaşdı. Burada da xidmət üçün hər cür şərait yaradılıb. Onu da öyrəndim ki, Şöbənin balansına yeni xidməti avtomobillər verilib.

Həmsöhbətim dönə-dönə vurğuladı ki, bütün bu sadalananlar onlara olan böyük diqqət və qayğı nəticəsində mümkün olmuşdur. Əməkdaşlar da bu qayğıya xidməti uğurlarla cavab verməyə çalışırlar.

*Çingiz Şıxverdiyev, polis polkovnik-leytenantı*

# BABURUN XATİRƏSİNƏ...



*Publisistika bölməsinin əməkdaşı olacaq pırtlaşıq saçlı, qaraqabaq, elə özü də qarayanız oğlanı ilk dəfə görəndə qarışıq da düşüncələrimiz yarandı. Bu sakit görünüş özündən razılıq, lovğalıq olmasın…*

*Zənnimiz bizi aldadırmış. Sonralar öyrənəcəkdik iki bacının bir qardaşı olmaq və elə kiçik yaşlarından atasız qalmaq imiş onun öz içinə çəkilməyinin, belə qaraqabaq olmağının səbəbi. Əslində, o, qaraqabaq yox, həmişə fikirliydi…*

*Hər yeni gələn əməkdaşın özü ilə Mətbuat Xidmətinə, «Mübariz keşikdə»yə, jurnalımıza yeni nəfəs gətirəcəyini arzulamışıq, gözləmişik, özləmişdik. Polis leytenantı Babur Hüseynov həqiqətən fərqli və çox da maraqlı mövzularla gəlmişdi. Yazılarını xatırlayanlar bilirlər...*

*Peşəkar qələm sahibi, öz dəsti-xətti, öz məhsulu, özü ola biləcək imkanları, polis üçün çox gərəkli olan mənəvi təmizliyi, cəsarəti vardı...*

*Kiminin yanı-başından, kiminin həyatından, bizlərin isə həm də gələcəyindən, gərəcəyindən getdi.*

*Bacısının övladlarına atasızlığı unutdurmaq, bu yoxluğun ağrılarını azaltmaq üçün özünün nələrə qatlandığını da baxışlarından oxuyurduq...*

*Bəlkə də dağları içindəkiləri bölüşmək üçün ən ideal yer hesab edirdi. O, öz "təkliyində" rahat, həyat dolu idi.*

*Ötən vaxt ərzində dönəcəyinə inamımızı zərrə qədər itirməmişdik. "Harada olsa, gələcək",- deyib ümidimizi yollardan çəkməmişdik.*

*Bəd xəbər dünyamıza qara bulud kimi, qar uçqunu ilə çökdü.*

*Biz Bakıdan Astaraya Baburun toyuna getməli idik. Qisməti, qismətimiz bu imiş...*

*Onu son mənzilə yola salanda məzarlıqda səs-səsə verən bülbüllərin fəryadı hər kəsi, necə deyərlər, yerliləri də, gələnləri də təəccübləndirmişdi.*



*İndi bir o səs qalıb içimizdə, bir də vaxtsız ömür-gün yoldaşını, oğul kimi kürəkənini və bir də Baburunu itirən Ananın ürək dağlayan laylası…*

*Nur içində uyusun…*

*M.K.*

# QƏLƏBƏ QAZANDI

**Aprelin 27-dən 29-dək Ukraynanın Xarkov şəhərində əlbəyaxa döyüş növləri üzrə Avropa çempionatı keçirilib. Yarışda ölkəmizin milli komandası da iştirak edib.**

Artıq ənənə halını alan bu yarışa qatılan milli komandamız yüksək nəticələr əldə edir. Elə millimizin tərkibində "döyüşən" daxili işlər orqanlarının idmançı əməkdaşları da hər dəfə yüksək əyarlı medallar qazanırlar. Bu dəfə də istisna olmadı.



DİN Daxili Qoşunlarından **baş leytenant İlqar Nəcəfli** yüksək fiziki və texniki hazırlıq nümayiş etdirib. O, bütün rəqiblərini məğlub edərək növbəti dəfə Avropa çempionu adını qazanıb.

Hələ kiçik yaşlarında olarkən idmanın karate-Do növü ilə məşğul olmağa başlayan İlqar ilk uğurunu Bakıda keçirilən beynəlxalq turnirdə qazanıb. Daha sonra peşəkar idmanda nailiyyətlər əldə edib. O, ikiqat dünya çempionu, Avro-Asiya yarışının qalibi, dünya kubokunun sahibidir.

*H.Zeyni*

# ƏMƏKDAŞIMIZ DÜNYA ÇEMPİONU OLDU



**Bu yaxınlarda Türkiyənin İstanbul şəhərində karate üzrə doqquzuncu dünya çempionatı keçirilib.** "Şobu İppon", "WKF kumite" və "sambom kumite" versiyaları üzrə keçirilən yarışda 31 ölkənin idmançıları ilə yanaşı ölkəmizin yığma komandası da iştirak edib.

Yığma komandamızın tərkibində döyüşən DİN-in A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin əməkdaşı, **polis serjantı Rəsul Əlizadə** bütün rəqiblərini məğlub edərək dünya çempionu adını qazanıb. Kiçik yaşlarından idmana həvəsi olan Rəsul dəfələrlə respublika çempionu olub. Karate üzrə 2012-ci ildə dünya çempionatında ikinci yeri tutub, 2014-cü ildə isə Avropa çempionatının qalibi olub.

*Z.Hüseynov, polis serjantı*

# İDMANÇILARIMIZA HAMI QİBTƏ EDİRDİ



**Mayın 17-dən 19-dək Minsk şəhərində MDB dövlətlərinin güc qurumları arasında idmanın daş qaldırma növü üzrə turnir keçirilib. İlk dəfə keçirilən bu yarışda Azərbaycan DİN-in idmançı əməkdaşları da iştirak ediblər.**

DİN İdman Cəmiyyətinin komandası bu yarışa 5 iştirakçı ilə qatılıb. 70, 75, 80, 90, + 90 kiloqram çəki dərəcələrində müvafiq olaraq Anar Abdullayev, Elvin Dövlətov, Təbriz Məmmədov, Müşviq Hüseynov və Ruslan Kübərov öz güclərini sınayıblar. Yığmamız bu turnirdə bürünc medala sahib olub.

Qeyd edək ki, komandamızı bu yarışa DİN İdman Cəmiyyətinin Sumqayıt Regional Qrupunun baş inspektoru, polis polkovnik-leytenantı Firudin Tağıyev hazırlayıb.

Komandamızın rəhbəri, Cəmiyyətin, İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov ölkəmizdə bu idman növündə daxili işlər orqanları əməkdaşları arasında yarışların müntəzəm keçirildiyini, onların asudə vaxtlarında bu idman növü ilə məşğul olduqlarını, əməkdaşların hazırlıq səviyyəsinin daha yüksək nəticələrə ümid etməyə əsas verdiyini, polis idmançılarımızın ildən-ilə yarış təcrübələrinin artdığını diqqətə çatdırdı.

*Xəyalə Məmmədova, polis leytenantı*

# UMAN YERDƏN... KÜSMÜRLƏR...

**Çin vətəndaşları Yu Gaominq və Su Lixin, Bakı şəhər sakini Natiq Məmmədzadə, Hacıqabul rayon sakini Həsənağa Seyidov Qaradağ Rayon Polis İdarəsinin, Paytaxt sakini Tükəzban Əliyeva, şəhid ailəsi adından Mehdi Nemətli, Müharib Zeynalov Xətai Rayon Polis İdarəsinin, Bakıdan Vaqif Hüseynov, Ülkər Nağıyeva Nərimanov Rayon Polis İdarəsinin, Bakı şəhər sakini Zülfünaz Rəcəbova, Fuad Cəmilov, Sabunçu Rayon Polis İdarəsinin İstintaq şöbəsinin əməkdaşlarından razılıqlarını ifadə edirlər.**

Son zamanlar vətəndaşlara dəymiş ziyanın ödətdirilməsində müşahidə olunan sürətlənmə həm vətəndaşı məmnun edir, həm də görülən işi gözlərimiz önündə sərgiləyir. Düzü, bu mövzuda yazmaq, araşdırmaq üçün ilk bələdçimiz məktublar oldu. Yəni vətəndaş razıdır, vətəndaş məmnundur. O zaman niyə yazmayaq, niyə təqdir etməyək?

"Dəymiş ziyanın ödətdirilməsi problem kimi qalsa da polis bu işin də öhdəsindən layiqincə gəlməyə çalışır və bu, DİN-ə ünvanlanan məktublarda da əksini tapır" fikrimi təsdiqləyən Nərimanov RPİ İstintaq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Vüqar İsmayılov bildirdi ki, əvvəlki illərə nisbətdə indi bu mövzu daha çox gündəmdədir. Elə bu istiqamətdə aparılan təhqiqat işlərinin də müsbət sonluqla nəticələnməsi, yəni vətəndaşın dələduzların qurbanı olub onların toruna düşməməsi üçün həm də maarifləndirmə işlərinə böyük ehtiyac var.

Yeri gəlmişkən, bu ilin ilk üç ayında istintaqı tamamlanmış və məhkəməyə göndərilmiş cinayət işləri üzrə vətəndaşlara ümumilikdə dəymiş 403,664 manat məbləğində maddi ziyanın 369,989 manatı, yəni 91,7 faizi Nərimanov RPİ-nin İstintaq şöbəsi tərəfindən ödətdirilmişdir.

Bakı şəhəri üzrə ən yüksək göstərici Pirallahı Polis İdarəsindədir: Ödəmə 100 faiz həyata keçirilib. Suraxanı Polis İdarəsi isə 96,4 faizlə ilkin yerlərdədir.

"Biz həm də üzləşdiyi problemin məhkəmə predmeti olduğu barədə" vətəndaşları maarifləndiririk",-deyən Xətai RPİ İstintaq şöbəsinin rəisi, polis polkovniki Bahadur Şükürovla da görülmüş işlərə nəzər saldıq. Diqqətimizə çatdırıldı ki, 2018-ci ilin birinci rübündə dəymiş ziyanın ödənilməsi ilə bağlı istintaqa məlum olan 557 min 204 manatın 513 min 304 manatı ödənilmişdir. İttiham üzrə dəymiş ziyan 500 min 223 manatdır və onun da 457 min 123 manatı ödənilib. Xətm və bəraət verilməyən üsullarla cinayət istintaqının qaldırılması rədd edilən materiallar üzrə ziyanın ödənilməsi də proritet olub.

Sabunçu RPİ-də də bu istiqamətdə görülən işlər qənaətbəxşdir. Belə ki, cari ilin 3 ayı ərzində mülkiyyətlə əlaqədar istintaqı tamamlanmış cinayət işləri üzrə vətəndaşlara dəymiş maddi ziyan 278415 manat olmuşdur ki, onun da 259886 manatı və ya 93,3 faizi ibtidai istintaq zamanı ödətdirilmişdir. Ötən il isə mülkiyyətlə əlaqədar istintaqı tamamlanmış cinayət işləri üzrə dəymiş ziyan 639794 manat olmuş, onun da 388525 manatı, 61 faizi ödənilmişdir.

Qaradağ RPİ tərəfindən vətəndaşlara dəymiş 166212 manat maddi zərərin 158051 manatı ödənilib ki, bu da 95,1 faiz təşkil edir. Ötən illə müqayisədə bu istiqamətdə əldə olunan nəticələr də polisin nüfuzunun yüksəlməsinə xidmət edir.

*T.Hafiz*

# OĞRU OCAQ BAŞINDA



**Hava bərk soyuq olduğundan çayxanada iynə atsan, yerə düşməzdi. Masa arxasında elə sıx əyləşmişdilər ki, biri digərinin danışdığını asanlıqla eşidirdi. Bundan ehtiyatlanan Vüqar həmsöhbətinə göz-qaş edərək bayıra çağırdı.**

***-Üstündə pulun var?***

***-Sən də söz tapdın danışmağa, məndə pul nə gəzir. Bununçün çağırdın məni?!***

***-Səbr elə, içəridə deyə bilmədim, yaxşı bir iş var, gedək?***

***-Adaş, sən nə desən, mən hazır...***

Telefonda danışıb vədələşdikləri yerdə görüşdülər. Bir göz qırpımında pilləkənləri qalxıb mənzillərdən birinin qarşısında durdular. Əvvəlcədən özləri ilə gətirdikləri dəmir lingi qapıya salıb asanlıqla açdılar. Mənzilə daxil olub hər tərəfi ələk-vələk etdilər. Nəhayət, axtardıqlarını tapıb oradan uzaqlaşdılar.

Ev sahibi Vahid Xanməmmədov və ailə üzvləri mənzilin talan olunduğunu görəndə heç nəyə toxunmadan polisə xəbər verməyi qərarlaşdırdılar. Vahid kişi, necə deyərlər, "köhnələrdən" idi. Bu üzdən telefonla məlumat verməyib özü birbaşa Bərdə Rayon Polis Şöbəsinə yollandı.

**-Məni rəislə görüşdürün, ona sözüm var,**-deyərək Növbətçi hissənin qarşısında o tərəf-bu tərəfə gedirdi. Məsələnin ciddiliyini anlayan növbətçi polis zabiti Şöbənin rəisi, polis polkovniki İlqar Məmmədovla əlaqə saxladı: **"Rəis bir vətəndaş sizinlə görüşmək istəyir."**

**-Tez yanıma gətirin,- rəis göstəriş verdi.**

Qocanı diqqətlə dinlədikdən sonra belə aydın oldu ki, bu yaxınlarda oğluna toy edəcəkmiş. Elə bu səbəbdən də beş min manat tədarük edibmiş. Bu gün də, həmişə olduğu kimi, ev sakinləri hamılıqla səhər tezdən iş-güclərinin dalıyca yollanıbmış. Qayıdanda isə məlum mənzərə...

Rəis qocanı sakitləşdirdi və hadisəni törədənlərin mütləq tapılaraq məsuliyyətə cəlb olunacaqlarına söz verdi. Onun göstərişiylə yaradılmış əməliyyat-istintaq qrupuna rəhbərlik əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Zaur Nəsirova tapşırıldı.

Qrup vaxt itirmədən hadisə yerinə yollandı. Lazımi müayinələr aparıldı, əl-barmaq izləri götürülərək araşdırılması üçün aidiyyatı üzrə göndərildi, şahidlərin olub-olmaması araşdırıldı.

Bu hadisədən bir müddət sonra Zümürxan kəndində yaşayan Məzahir Cəfərovun evindən 22300 manat oğurlanması barədə RPŞ-yə məlumat daxil oldu. Məzahirin ailə üzvləri ilə birlikdə Bərdədəki bazarda iaşə xidmətləri göstərmələrini bilən şəxs və ya şəxslər onların evdə olmamalarından istifadə edərək mənzili qarət etmişdilər.

Hər iki faktda oxşar əlamətlərin olduğu açıq-aşkar görünürdü. Polis polkovniki İlqar Məmmədov da rəisyanı müşavirədə bu faktı önə çəkməyi və elə həmin istiqamətdə əməliyyat-istintaq tədbirlərini intensivləşdirməyi tapşırdı.

Aparılmış tədbirlər sonda öz bəhrəsini verdi. Hər iki cinayəti Vüqar İbrahimov və Vüqar Baxşəliyevin törətmələri danılmaz sübutlarla isbat olundu.

Onu da qeyd edək ki, Vüqar İbrahimov toyu olacaq gənclə yaxın qohumdur .

Yeri gəlmişkən, cari ilin təkcə ilk üç ayı ərzində RPŞ üzrə ümumilikdə 76 cinayət qeydə alınıb, açılması 93.8 faiz təmin edilib, 12 nəfərdən ibarət 5 cinayətkar dəctə yaxalanıb. Qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılması 93.9 faiz təşkil edib. Axtarışda olanlardan 13-ü tutularaq istintaqa təhvil verilib. Xəbərsiz itkin düşən 6 nəfərin yeri müəyyənləşdirilib. Narkotiklərlə bağlı 17 fakt aşkarlanıb...

***Ç.Şıxverdiyev, polis polkovnik-leytenantı***

## 2018-ci ilin II yarısı üçün "Mübariz keşikdə"yə- öz qəzetinizə abunə olmağa tələsin!

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ TƏŞKİLAT-İNSPEKSİYA İDARƏSİNDƏ VAKANT OLAN XÜSUSİLƏ MÜHÜM TAPŞIRIQLAR ÜZRƏ BAŞ İNSPEKTOR, BAŞ İNSPEKTOR VƏ İNSPEKTOR VƏZİFƏLƏRİNƏ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə daxili işlər orqanlarının orta və böyük rəis heyəti vəzifələrində azı 5 il xidmət keçən, ali hüquq təhsilli, xidmətdə müsbət xarakterizə olunan, geniş dünyagörüşə və analitik düşüncəyə malik, kompyuterdə işləməyi bacaran əməkdaşlar iştirak edə bilərlər.

Yuxarıda göstərilən tələblərə cavab verən namizədlər 2018-ci ilin iyun ayının 15-dək müvafiq qaydada Baş Təşkilat-İnspeksiya İdarəsinin rəhbərliyinə və Baş Kadrlar İdarəsinə müraciət edə bilərlər.

**Əlaqə telefonu: (012) 590-17-07, (012) 590-93-27**

# HÜQUQLARIMIZI QORUYAQ Kİ...




**Hər il ölkəmizdə "İnsan hüquqları aylığı" çərçivəsində bir çox tədbirlər keçirilir. Belə tədbirlərdən biri də Qubadlı Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Sumqayıtda yerləşən Qara İlyasov adına 1 saylı tam orta məktəbdə gerçəkləşdirilib.**

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Hümbət Hümbətəliyev polisin bu təşəbbüsünü alqışlayaraq insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinin Azərbaycan dövlətinin ən ali məqsədlərindən biri olduğunu və son illər ölkəmizdə insan hüquqlarının qorunması sahəsində mühüm işlərin görüldüyünü bildirib.

Şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis mayoru Tural Namazov qanunun aliliyinin, insan hüquqları və demokratiyanın ölkəmizdə həyata keçirilən dövlət quruculuğu proseslərinin təməl prinsipləri olduğunu vurğulayıb, Azərbaycanda Ombudsman institutunun yaradılmasının insan hüquqlarının məhkəmə sistemindən kənarda qorunmasına böyük təkan verdiyini deyib.

Tədbirdə rəis müavini, polis polkovnik-leytenantı İlham Rəsulov, polis mayorları Şəfiqə Quliyeva, Qoşqar Niyazov, Vahid Kərimov, polis leytenantı Məhəmməd Dünyamalıyev və digərləri demokratiya yolu ilə addımlayan, insan hüquq və azadlıqlarını özünün prioritet vəzifəsi elan edən dövlətimizin sivil dünyanın, beynəlxalq təşkilatların prinsiplərinə ciddi riayət etməklə dahi öndərimizin müəyyənləşdirdiyi yolla inamla irəlilədiyini diqqətə çatdırıblar.

Sonra şagirdlərin sualları cavablandırılıb.

***Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı***

# UĞURLU NƏTİCƏLƏR QAZANDILAR




**Aprelin 30-dan mayın 6-dək Rusiyanın Kaspiysk şəhərində böyüklər arasında güləş üzrə Avropa çempionatı keçirilib. Bu yarışda ölkəmizin milli komandası da iştirak edib. Yarışda yığma komandamız sərbəst güləş üzrə Avropa ikincisi, yunan-Roma güləşi üzrə üçüncü olub.**

Milli komandamızın tərkibində güləşən DİN İdman Cəmiyyətinin yetirməsi Eldəniz Əzizli qələbə uğrunda inamlı mübarizə aparıb. Yunan-Roma güləşi üzrə millimizin favoritlərindən hesab olunan təmsilçimiz çəkisi 55 kiloqramadək olan güləşçilərin mübarizəsində bütün rəqiblərini məğlub edərək qitə çempionu adını qazanıb.

E.Əzizlini bu yarışa İdman Cəmiyyətinin Təlim şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Radik Hüseynov hazırlayıb. Əməkdar məşqçi R.Hüseynovun digər yetirməsi Rafiq Hüseynov isə çəkisi 82 kiloqramadək olan idmançılar arasında bürünc mükafata sahib olub.

Qadın güləşi üzrə İdman Cəmiyyətinin yetirməsi Səbirə Əliyeva iştirak edib. IV İslam Həmrəyliyi oyunlarının gümüş medalçısı S.Əliyeva bu çempionatda çəkisi 76 kiloqramadək idmançılar arasında finaladək irəliləyib, bürünc medal qazanıb.

Onu bu yarışa DİN Polis Akademiyasının şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Hicran Şərifov hazırlayıb.

***Zeyni Hüseynov***

# GƏNCLİYİMİZİ QORUYAQ

**Nizami RPİ-nin təşəbbüsü və təşkilatçılığ ilə 12 nəmrəli tam orta məktəbində "Narkomaniyaya yox deyək" mövzusunda tədbir keşirilmişdir.**

Toplantını məktəbin direktoru Rahim Novruzov açaraq Polis İdarəsinin əməkdaşlarına və veteranlara cəmiyyətimizin bu ağrılı məsələsində şagirdlərə doğru-düzgün məlumat verdiklərinə görə minnətdarlığını bildirdi.

Öncə narkomaniya və onun ağır fəsadlarını əks etdirən maraqlı film nümayiş etdirildi.

Sonra RPİ-nin əməkdaşları Natiq Qasımov və Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili Bölməsinin əməkdaşı, polis kapitanı Pərvanə Əzizova narkomaniyanın və narkoticarətin fəsadlarından ətraflı söz açdılar.

***Ş.Çingiz***

# ANONS

"Fəvvarəlr meydanı"ndayam. Onları müşahidə edirəm. Davranışları, ünsiyyətqurma bacarıqları, püxtələşmiş peşə vərdişləri diqqətimi çəkir. Dünyanın hər yerində belədir: Turistlərin müraciət etmək üçün ilk üz tutduqları ünvan polislərdir. Həm də gecənin bu vədəsində, bu saatda onların burda olması həm sakinlərimizdə, həm də turistlərin özündə arxayınlıq yaradır.

Bu fikir illərdir ki, öz təsdiqini tapıb: "Bayır xidməti polisin simasıdır"...

## Mayın 16-dan 22-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 749 cinayət qeydə alınmış, onların 173-ü «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 46 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 198 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 11 nəfər, borclu şəxs qismində axtarışda olan 128 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 21 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 6 nəfər ölmüş, 41 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 86 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 228 nəfər saxlanılmışdır.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti iş yoldaşları Nadir Hüseynova əzizi

**QABİL HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyev və şəxsi heyəti iş yoldaşları İlham Abbasova anası

**NARISTAN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti iş yoldaşları Məhəmməd Rzayevə əzizi

**ZAHİR CƏFƏRQULİYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti İlham Abbasova anası

**NARISTAN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti İlham Abbasova anası

**NARISTAN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə ŞBPİ-nin rəisi Faiq Şabanov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt ŞPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİO Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov İlham Abbasova anası

**NARISTAN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov və Şuranın üzvləri polis veteranı

**YUNİS MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti rəis müavini Zaur Bayramova əzizi

**NURƏDDİN BAYRAMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Nəsimi RPİ-nin rəisi Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Oğuz RPŞ-nin rəisi Tahir Quliyev və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tərtər RPŞ-nin rəisi Rauf Məcidov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağdam RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qubadlı RPŞ-nin rəisi Bəhruz Cabbarov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Lerik RPŞ-nin rəisi Hüseynəli Məlikov və şəxsi heyəti Musa Musayevə anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.298
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00